***“Azərbaycan Ermənistan qoşunlarının bütün ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi və Azərbaycan müharibəyə son qoydu”. Bu fikirləri Azərbaycan Prezidenti cənab İlham Əliyev Avropa İttifaqı Şurasının Prezident Şarl Mişellə birgə 2021-ci il iyulun 18-də Bakıda keçirdiyi mətbuat konfransında səsləndirib.***

# Vətənə sədaqət nümunəsi

BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyən işğalçı Ermənistan sülh danışıqlarından yayınır, regionda status-kvonu saxlamaq istəyirdi. Ölkəsinin bu vəziyyətlə barışmayacağını dəfələrlə, həm də qətiyyətlə bildirən Azərbaycan Prezidenti cənab İlham Əliyev Ermənistana da, onu dəstəkləyən dövlətlərə də qətiyyətlə demişdi: “Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək”. Bu qətiyyət işğalçı dövləti sülh danışıqlarına gətirməli idi. Ermənistan bilməli idi ki, danışıqlar baş tutmadığı halda münaqişəni Azərbaycan Ordusu döyüşlə həll edəcəkdir.

Beynəlxalq hərbi ekspertlər Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında olduğunu bildirirdi. Ordunun gücünü təkcə ən müasir silahlar, uçuş aparatları, döyüş texnikaları müəyyənləşdirmir. Burada həm də şəxsi heyətin mənəvi-psixoloji hazırlığı əsas götürülür. Yəni dünyanın iri dövlətlərinin hərbi ekspertləri Azərbaycan Ordusunun şəxsi heyətinin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığını yüksək dəyərləndirirdilər. Müharibələr tarixi təsdiqləyir ki, əsgərinin döyüş əzmi, qələbə ruhu yüksək səviyyədə olmayan ordu qalib gələ bilməz.

Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmrinə hazır idi. Ordumuz bu əmrlə, necə deyərlər, səngərləri sərhədlərə köçürəcəkdi.

Ermənistan silahlı qüvvələri 2020-ci il sentyabrın 27-də bütün istiqamətlərdən Azərbaycanın ərazilərinə hücuma keçdi. Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatına başladı. Bu əməliyyat Vətən müharibəsi üçün başlanğıc oldu.

Vətən müharibəsi başlayanda Birinci Qarabağ müharibəsinin iştirakçıları da, qazilər də, tələbələr də döyüşlərdə iştirak etmək üçün kütləvi şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə rayon şöbələrinə müraciət etdilər. Ölkə başçısının müvafiq sərəncamı ilə qismən səfərbərlik elan edildiyinə görə bu müraciətlərin az hissəsinə razılıq verilmişdi; Vətən müharibəsi xalqın müharibəsi idi. “Kürəyində xalqın nəfəsini hiss edən əsgər daha güclü olur” – deyimi var və bu, birmənalı şəkildə gerçəklikdir. Vətən müharibəsində xalqın orduya inamı, güvənci, qələbə üçün gərəkli, böyük stimul idi.

Azərbaycan Ordusu düşmənin qurduğu, illərlə möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini – müdafiə sistemini darmadağın etdi. Hərbi publisistikada ehtiramla yazılıb, oxunan bir deyim hökm sürürdü: Azərbaycançılıq erməniliyi döyüş meydanında ölümə yaxınlaşdırırdı.

Vətən müharibəsində qazanılan Zəfərdən sonra tanıdığım bir ailənin hərbi xidmətdən tərxis edilmiş əsgər oğlu deyirdi ki, döyüşlər vaxtı komandirimiz mənə çatan məktubu Gəncədən bir şəhid anası yazmışdı: “Adını bilmirəm, oğul, sənə oğlum deyirəm, şəhid oğlumun qardaşı deyirəm. Siz döyüşün! Siz qələbə qazanacaqsınız! Şəhid anaları da, şəhid qardaşlarımızın ruhunu da nigarançılıqdan qurtaracaqsınız. Siz Azərbaycan əsgərisiniz! Döyüşün, şəhid oğlumun qardaşları, döyüşün! Zəfər sizin Zəfəriniz, bizim Zəfərimiz olacaq!”.

Döyüşçünün yaddaşında qalan bu kəlmələr də müharibə tariximizdir. Belə oğulların qətiyyəti də, Vətənə sevgisi də silah idi. Bu silah döyüş əzmini, qələbə ruhunu daha yüksək səviyyədə yaşadırdı.

Vətən müharibəsində xalq ölkə başçısının ətrafında daha sıx birləşdi. Bu birliyin gücü ilə Azərbaycan əsgəri döyüşə-döyüşə irəliləyir, yaşayış məntəqələrini azad edirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqa hər müraciəti bir qələbə ovqatı aşılayır, ürəyimizdən tikan çıxarırdı. Xalq bu ovqatı Böyük Qələbənin müjdəsi kimi qəbul edirdi.

Azərbaycan əsgərinin döyüş əzmi, qələbə ruhu düşməni qorxuya salmışdı. Erməni əsgər və zabitləri də, muzdluları da döyüşçülərimizin təkcə silahlarından yox, həm də vətənsevərliyindən xoflanırdı. Erməni əsgəri Narek Djaninyanın xarici mətbuatlarda ictimailəşdirilən bir fikri dediklərimizin təsdiqidir: “400 nəfər gördük. Atəş açılırdı, onun ardınca daha bir qrup gəlirdi. Atəş açılırdı, ardınca ikiqat böyük qrup dalğa halında gəlirdi. Əlbəttə ki, belə bir qüvvənin qarşısında tab gətirmək mümkün deyildi”.



Başqa bir erməni hərbçisi Andrey Nalbanzyanin etirafı da Azərbaycan əsgərinin gücü, qüdrəti haqqında gerçək təəssürat yaradır: “Yaxın məsafədən atışa girən dostlarım düşmənin qeyri-insani inadkarlığını qeyd edirlər. Avtomatla çiyinlərindən vururdun, amma döyüşməyə davam edirdilər – onlar terminator kimi irəliləyirdilər. Sanki zombi ordusu idi".

Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı işğaldan azad edildi. Bu, Azərbaycan Ordusunun şəxsi heyətinin qələbə ruhunu daha da yüksəltdi.

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 8 Noyabr Zəfər Günü kimi qeyd olunacaq. Bayram kimi, azərbaycançılığın erməniliyi məğlub etdiyi gün kimi tarixdə qalacaq.

***Hazırda biz azad edilmiş əraziləri fəal şəkildə bərpa edirik. Genişmiqyaslı bərpa proqramına başlanılıb. Əminəm ki, qısa müddət ərzində biz Ermənistanın işğalından əziyyət çəkmiş məcburi köçkünləri, bir milyondan çox insanı həmin yerlərə qaytara biləcəyik. Müharibə və onun nəticələri onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalır. Siz öz məqsədinizə sadiq olmalısınız, yaxşı hazırlaşmalısınız, beynəlxalq hüquq çərçivəsinə malik olmalısınız və insanların yüksək səviyyədə iradəli olmasına nail olmalısınız. Bütün həmin meyarlar, o cümlədən hərbi imkanlarımız münaqişənin həllində əsas amil oldu. Hazırda münaqişə bitib və qeyd etdiyim kimi, yenidənqurma başlayıb. İndi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 4-də keçirilən VIII Qlobal Bakı Forumundakı çıxışından***

Zəfər Günü Azərbaycana sayğısı, ehtiramı olan bütün xalqların bayramıdır. Çünki bu bayram bəşəri Zəfər bayramıdır.

Ölkə başçısının sərəncamı ilə Bakıda açılan “Hərbi Qənimətlər Parkı” da Zəfərə ehtiramın təzahürüdür. Bu park gənc nəslin vətənpərvərlik duyğularını daha möhtəşəmliklə formalaşdıracaqdır.

İşğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri Zəfərin məntiqi davamıdır. Füzulidə istifadəyə verilən, Zəngilanda tikintisi davam etdirilən, Laçında inşası nəzərdə tutulan aeroportlar da Azərbaycanın iqtisadi inkişafında yeni mərhələdir. Bu mərhələ hər bir azərbaycanlının Vətən sevgisini daha da müqəddəsləşdirir.

Şuşada keçirilən “Xarıbülbül” festivalında Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın dediklərini Vətən müharibəsi barədə, qazandığımız Zəfər haqqında ən duyğusal fikir bilirik: “Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. “Qarabağ şikəstəsi”ni oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır”

8 Noyabr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qürurunun tamamladığı bayramdır: “Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və düşməni torpaqlarımızdan qovduq”.

8 Noyabr Zəfər günüdür. Bu bayram azərbaycançılığın bayramıdır. Bu bayram həm də əbədiyyən xalqımızın tarixində müzəffər Ali Baş Komandanın sərkərdəlik qüdrəti kimi, Azərbaycan əsgərinin qətiyyət, Vətənə sədaqət tarixi kim yaşayacaqdır.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2021.- 11 noyabr.- S.12.